# Azərbaycan Respublikası Prezidentinin bəzi fərmanlarında və sərəncamında dəyişikliklər edilməsi barədə

## Azərbaycan Respublikasi Prezidentinin Fərmanı

«Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin strukturuna dəyişikliklər və əlavələr edilməsi haqqında» Azərbaycan Respublikası Prezidentinin 2008-ci il 2 iyun tarixli, 767 nömrəli Fərmanına uyğun olaraq **qərara alıram:**

1. «Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi kollegiyasının tərkibinin təsdiq edilməsi haqqında» Azərbaycan Respublikası Prezidentinin 1995-ci il 1 may tarixli, 170 nömrəli Sərəncamının (Azərbaycan Respublikası Ali Sovetinin Məlumatı, 1995-ci il, № 9, maddə 187; Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004-cü il, № 12, maddə 1028) 2-ci bəndində aşağıdakı dəyişikliklər edilsin:

1.1. *«Gömrük Qaydalarının Pozulması və Qaçaqmalçılıqla Mübarizə Baş İdarəsinin rəisi»* sözləri *«Gömrük Sahəsində Hüquqpozmalara qarşı Mübarizə Baş İdarəsinin rəisi»* sözləri ilə əvəz edilsin;

1.2. *«Naxçıvan Muxtar Respublikası Gömrük Komitəsinin sədri»* sözləri *«Naxçıvan Muxtar Respublikası Dövlət Gömrük Komitəsinin sədri»* sözləri ilə əvəz edilsin.

2. Azərbaycan Respublikası Prezidentinin 2004-cü il 10 dekabr tarixli, 155 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004-cü il, № 12, maddə 1001) ilə təsdiq edilmiş «Azərbaycan Respublikasının gömrük orqanlarında ali xüsusi rütbəli vəzifələrin Siyahısı»nda *«Naxçıvan Muxtar Respublikası Gömrük Komitəsinin sədri»* sözləri *«Naxçıvan Muxtar Respublikası Dövlət Gömrük Komitəsinin sədri»* sözləri ilə əvəz edilsin.

3. Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 2 noyabr tarixli, 475 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006-cı il, № 11, maddə 937) ilə təsdiq edilmiş «Xidməti silah saxlamaq, gəzdirmək və təyinatı üzrə istifadə etmək hüququ olan Azərbaycan Respublikası gömrük orqanlarının vəzifəli şəxslərinin Siyahısı»nda aşağıdakı dəyişikliklər edilsin:

3.1. *«Qaçaqmalçılıq və Gömrük Qaydalarının Pozulması ilə Mübarizə Baş İdarəsinin»* sözləri *«Gömrük Sahəsində Hüquqpozmalara qarşı Mübarizə Baş İdarəsinin»* sözləri ilə əvəz edilsin;

3.2. *«Naxçıvan Gömrük Komitəsinin»* sözləri *«Naxçıvan Muxtar Respublikası Dövlət Gömrük Komitəsinin»* sözləri ilə əvəz edilsin;

3.3. Siyahının «Naxçıvan Muxtar Respublikası Dövlət Gömrük Komitəsinin» vəzifəli şəxslərinə aid hissəsində *«qaçaqmalçılıq və gömrük qaydalarının pozulması ilə mübarizə şöbəsinin»* sözləri *«gömrük hüquqpozmalarına qarşı mübarizə şöbəsinin»* sözləri ilə əvəz edilsin;

3.4. Siyahının «Dövlət Gömrük Komitəsi sisteminə daxil olan gömrük idarələrinin» vəzifəli şəxslərinə aid hissəsində *«qaçaqmalçılıq və gömrük qaydalarının pozulması ilə mübarizə şöbələrinin»* sözləri *«gömrük hüquqpozmalarına qarşı mübarizə şöbələrinin»* sözləri ilə əvəz edilsin.

4. Azərbaycan Respublikası Prezidentinin 2007-ci il 28 sentyabr tarixli, 634 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007-ci il, № 9, maddə 872; 2008-ci il, № 3, maddələr 169, 186, № 5, maddə 364, № 6, maddələr 483, 504) ilə təsdiq edilmiş «İnzibati xətalar haqqında işlərə baxmağa səlahiyyəti olan vəzifəli şəxslərin Siyahısı»nın 4.1-ci bəndində aşağıdakı dəyişikliklər edilsin:

4.1. *«Qaçaqmalçılıq və Gömrük Qaydalarının Pozulması ilə Mübarizə Baş İdarəsinin»* sözləri *«Gömrük Sahəsində Hüquqpozmalara Qarşı Mübarizə Baş İdarəsinin»* sözləri ilə əvəz edilsin;

4.2. *«Naxçıvan Muxtar Respublikasının Gömrük Komitəsinin»* sözləri *«Naxçıvan Muxtar Respublikasının Dövlət Gömrük Komitəsinin»* sözləri ilə əvəz edilsin.

5. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Fərmandan irəli gələn məsələləri həll etsin.

6. Bu Fərman dərc edildiyi gündən qüvvəyə minir.

***Azərbaycan Respublikasının Prezidenti***

***İlham ƏLİYEV***

***Bakı şəhəri, 2 dekabr 2008-ci il***

***№ 28***

***«Azərbaycan» qəzetində dərc edilmişdir (3 dekabr 2008-ci il, № 271) («VneshExpertService» LLC).***

***«Azərbaycan Respublikasının Qanunvericilik Toplusu»nda dərc edilmişdir (31 dekabr 2008-ci il, № 12 (138), maddə 1057) («VneshExpertService» LLC).***

*© VneshExpertService LLC*